★ 2015-ci ilin 18 dekabr tarixində Avropa Komissiyası, Gürcüstan tərəfindən viza rejiminin liberallaşdırılmasının fəaliyyət planının həyata keçirildiyi barədə son hesabatını yaydı. Həmin plana əsasən, Gürcüstan vətəndaşları üçün Avropa İttifaqına vizasız giriş-çıxış rejiminin qəbul edilməsi üçün gərəkən bütün tələblər Gürcüstan İqtidarı tərəfindən artıq yerinə yetirilibdir;

*Bu da o deməkdir ki, Avropa İttifaqının müvafiq İnstitutları tərəfidən hüquqi prosedurların başa çatdırılmasından sonra, Biometrik pasportu olan hər bir Gürcüstan vətəndaşı, Avropa İttifaqının/Şengenin üzvü olan ölkələrə vizasız səyahət edə bilər;*

★ Gürcüstan vətəndaşları Avropa Birliyinin 22 ölkəsini (Böyük Britaniya və İrlandiya istisnadır ) və Avrupa Birliyinin 4 üzv olmayan (qeyri-üzv) ölkəsini əhatə edən Şengen zonasının ərazisində vizasız səyahət edə biləcəklər. Vizasız gediş-gəliş həmçinin Şengenin üzvlüyünə namizəd 4 ölkəsində qüvvədə olacaq:

## Avropa Birliyinin üzv ölkələri:

Avstriya, Belçika, Almaniya, Daniya, İspaniya, Estoniya
İtaliya, Latviya, Litva, Lyuksemburq, Malta, Hollandiya
Polşa, Portuqaliya, Yunanıstan, Fransa, Slovakiya, Sloveniya
Çexiya, İsveç, Macarıstan, Finlandiya

## Avropa Birliyinin üzvü olmayan (qeyri-üzv) ölkələri:

İslandiya, Lixtenştein, Norveç, İsveçrə

## Şengenin namizəd ölkələri

Bulgaria, Kipr, Rumıniya, Xorvatiya

## Vizasız səyahətin (aşağıdakılara) aidiyyatı yoxdur:

Böyük Britaniya, İrlandiya

*Bu iki ölkəyə səyahət etmək üçün, Avrupa Birliyi ilə vizasız rejimin qəbul edilməsindən sonra, viza almaq üçün müvafiq konsulluq idarəsinə müraciət etməlisiniz.*





★ Gürcüstanın Xarici İşlər Nazirliyinin qaynar xətti:

Tel.: (+995 32) 2 94 50 50
El.poçt: consulinfo@mfa.gov.ge
Veb-səhifə: www.bit.ly/1Plerbm

★ Xaricdə Gürcüstanın səfirlikləri və konsulluqları:
www.bit.ly/1QVFo5Y

★ Şengen vizasının müddətinin veb-hesablayıcısı:
www.bit.ly/1RpK3iq

# AVROPA BIRLIYINƏ VIZASIZ GEDIŞ-GƏLIŞ ÜÇÜN VACIB MƏLUMAT!



# VIZASIZ SƏFƏR MÜDDƏTI

- Avropa İttifaqı ilə vizasız gediş-gəliş rejimi şəraitində, Gürcüstan vətəndaşları Avropa İttifaqı/Şengen üzvü olan ölkələrə (ölkələrin siyahısına 4-ci səhifədə baxın) vizasız sadəcə qısa müddətli səfərə çıxa bilərlər;

- Vizasıs gediş-gəliş rejimi uzunmüddətli səfərlərə aid deyil, məsələn, təhsil almaq üçün və yaxud orada çalışmaq məqsədi ilə getmək kimi ! [1]

- Qısa müddətli səfər hərhansı bir 180 gün ərzində 90 gün müddətini nəzərdə tutur – yəni, hərhansı 6 aydan sadəcə 3 ayı.

180 gün arasından icazə verilmiş 90 gündən istifadə etmək ardıcıl və ya günlərin hissələrə bölüşdürülməsi ilə mümkündür, məsələn, növbəti şəkildə:

Bir dəfəlik 90 gün




Və ya bölüşdürülməsi




90-günlük müddət ərzində Avropa İttifaqının/Şengen ölkələrinin ərazisinə bir çox dəfə daxil olmaq mümkündür, lakin əmin olmalısınız ki, səfərinizin müddəti cəm şəklində son 180 gün ərzində 90 gündən artıq deyil.

Səfər Şengen zonasında olmaq üçün zamanı viza ilə icazə verilmiş müddəti ölçən xüsusi hesablayıcıdan istifadə etməyiniz tövsiyyə olunur: www.bit.ly/1RpK3iq

[1] *Avropa İttifaqının/Şengen ölkələrinin ərazisinə uzunmüddətli səfərə çıxmaq üçün, yenə viza rejimi istifadə olunur, və Gürcüstan vətəndaşları viza almaq üçün Gürcüstanda akkreditasiya edilmiş müvafiq ölkənin konsulluğuna müraciət etməlidirlər.*



*Vizasız gediş-gəliş şəraiti ilə nəzərdə tutulmuş 90 gün ərzindəki qısa müddətli səfərin məqsədi müxtəlif ola bilər:*

- Turizm;
- Ailə üzvlərini/qohumları/yaxınlarını ziyarət etmək;
- İşguzar/Biznes görüşlərinin, danışıqların aparılması;
- Beynəlxalq seminarlarda, konfranslarda, simpoziumlarda və sərgilərdə iştirak etmək;
- Qısa müddətli təhsil kurslarında və treniqlərdə, təhsil mübadilə/ixtisas artırma proqramlarında iştirak etmək;
- Mədəniyyət, Tibbi və İdman tədbirlərində iştirak etmək;
- Tibbi xidmətlərdən istifadə etmək – qısa müddətli müalicə kursu/əməliyyat.

*Vizasız səfər üçün hansı sənədlər lazımdır:*

- Qüvvədə olan biometrik pasport, hansının istifadə müddəti Gürcüstana qayıdış günü üçün 6 aydan əksik olmamalıdır.

*Avropa Birliyi/Şengen ölkəsi ərazisinə daxil olarkən, sərhəd yoxlayışı zamanı sizdən nə tələb olunur:*

- Avropa İttifaqının/Şengen ölkəsinin ərazisinə daxil olarkən sərhəd xidmətinin nümayəndəsi/əməkdaşı səfərinizin konkret məqsədi ilə maraqlana bilər (məs.: iş səfəri, turizm, dostları və qohumları ziyarət etmək, təhsil kursu 90 gün müddətinə qədər)

*Səyahət məqsədinin təsdiqlənməsi üçün, sərhəd xidmətinin əməkdaşının növbəti sənədləri tələb etmək haqqı var:*

- Gürcüstana geri dönüş bileti, mehmanxana bronlaşdırılması, səyahət sığortası, səyahətin maliyyə təminatını təsdiqləyən sənəd.
  (Məs.: Nəğd Pul, Yolçuluq çeki, qüvvədə olan ban elektron kartları). [2]

[2] *Mehmanxana bronlaşmasının mövcud olduğu halda, maddi təminat üçün gərəkli məbləğ, ümumən, bir gündə 50 laridən artıq olmur.*



## NƏZƏRƏ ALIN!

★ ***Avropa İttifaqının/Şengenin üzvü olan ölkələrin ərazisində olmağın 90 gün müddəti (180 gün ərzində)keçənə qədər, Gürcüstan vətəndaşı həmin ölkə ərazisini tərk etməlidir!***

Həmin ölkələrdə 90 gün ərzində ardıcıl şəkildə olduğunuz halda, oraya yenidən qayıdış 90 gün keçdikdən sonra mümkündür.

★ ***Vizasız gediş-gədiş Avropa İttifaqı/Şengen üzvü olan ölkələrdə çalışmağı və/uzun müddətli təhsil hüququnu nəzərdə tutmur!***

★ ***Avropa İttifaqı/Şengen ərazisinə daxil olmaq üçün Gürcüstan vətəndaşı:***

- İctimai asayiş, sağlamlıq və yaxud daxili təhlükəsizlik üçün təhlükə yarada biləcək şəxslərin siyahısında olmamalıdır;
- Avropa İttifaqı/Şengen üzvü olan ölkələrdə 1 ildən müddətindən artıq həbs cəzasını nəzərdə tutan cinayətə görə hökmlü (cinayət məsuliyyətinə cəlb olunmuş) olmamalıdır;

***Həmçinin,***

- Onun Avropa Birliyindən qovulması haqqında qərar mövcud olmamalıdır;
  Cinayət fəaliyyətində onun iştirakı barədə və yaxud belə bir cəhd barədə dəqiq dəlillər olmamalıdır

***Və***

- Avropa İttifaqı/Şengen ərazisinə girişi qadağan olan şəxslər siyahısında olmamalıdır.

★ ***Gürcüstan vətəndaşları səfərlə getdikləri ölkələrə giriş və orada olmaq qaydalarına riayət etməyə məcburdurlar, həmçinin xüsusilə elə ölkələrdə, hansılarda ki, fərqli qanunvericilik qüvvədədir.***

- 90-günlük müddətin ötürüldüyü zaman, Avropa İttifaqı/Şengen ərazisində qalmaq qeyri leqal hesab ediləcək. Orada qalan belə bir şəxs ölkədən qovulacaq və Avropa İttifaqı/Şengen ölkələri ərazisinə daxil olmaq onun üçün 5 ilə qədər müddət ilə qadağan edilə bilər;

  *Alternativ olaraq, ona qarşı administrasiya tədbiri tətbiq edilə bilər, həcmi – cərimə 3,000 avroya qədər. Cərimənin ödənilmədiyi halda, qanunu pozan şəxsə müvafiq ölkəyə (Avropa İttifaqı, Şengen ərazisi) daxil olmaq qadağan edilə bilər);*

- İcazəli səfər dövründə müxtəlif cinayətin törədildiyi halda Gürcüstan vətəndaşı, olduğu ölkənin qanunvericiliyi əsasında, müfafiq cinayət məsuliyyətinə cəlb olunur və bundan sonra ölkədən qovulur və Avropa Birliyi/Şengen ölkələri ərazisinə daxil olmaq ona 5 il müddəti ilə qadağan edilir;

- Avropa İttifaqı/Şengen ölkələrində çalışmaq iş izni olmadığı galda qeyrileqal hesab edilir, və buna görə, qanunu pozan şəxsi ölkədən qova bilərlər və təkrar girişini qadağan edə bilərlər.